***Azərbaycan Respublikası***
***Maliyyə Nazirliyinin***
*"06" dekabr 2011-ci il tarixli*
*Q-01 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta tariflərinin müəyyənləşdirilməsi

# Q A Y D A S I

**Bakı 2011**

Bu Qayda «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.6-cıyarımbəndinin icrası məqsədiləhazırlanmışdır və daşınmaz əmlakın icbari sığortası üzrə sığorta tariflərinin müəyyənləşdirilməsi ilə bağlı məsələləri tənzimləyir.

## 1. Sığorta tariflərinin müəyyənləşdirilməsi

1.1. Yaşayışevləri və mənzillər istisna olmaqla, digər daşınmaz əmlakın icbari sığortası üzrəsığorta tarifləri aşağıdakı düsturla hesablanır:

**ST = HƏ × (1 - GƏ)**

*burada:*

ST – faiz dərəcəsi ilə ifadə olunan *sığorta tarifi*;

GƏ – azadolma məbləğindən və sığorta məbləğindən asılı olaraq bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulan cədvələ əsasən müəyyən olunan müvafiq *güzəşt əmsalı*;

HƏ – bu Qaydanın 1.3.2-ci və1.4-cü bəndlərində nəzərdə tutulan cədvəllərə əsasən müəyyən olunan müvafiq *hesablama əmsalı*.

1.2. Sığorta tarifinin müəyyənləşdirilməsi məqsədiləazadolma məbləğindən və sığorta məbləğindən asılı olaraq güzəşt əmsalıaşağıdakı cədvəl əsasında müəyyən olunur:

| | **Sığorta məbləği** *(min manat)* | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Azadolma məbləği** *(manat)* | **100-ə qədər** | **100-250** | **250-500** | **500-1000** | **1000-2500** | **2500-5000** | **5000-10000 begin_of_the_skype_highlighting 5000-10000 end_of_the_skype_highlighting** | **10000-15000** | **15000-dən yuxarı** |
| **50-99** | 0,010 | | | | | | | | |
| **100-149** | 0,011 | 0,011 | | | | | | | |
| **150-199** | 0,013 | 0,013 | 0,013 | | | | | | |
| **200-249** | 0,018 | 0,018 | 0,17 | | | | | | |
| **250-499** | 0,024 | 0,024 | 0,023 | | | | | | |
| **500-999** | 0,031 | 0,031 | 0,030 | 0,030 | | | | | |
| **1000-1499** | 0,052 | 0,051 | 0,051 | 0,050 | 0,050 | | | | |
| **1500-1999** | 0,070 | 0,069 | 0,069 | 0,068 | 0,068 | 0,067 | | | |
| **2000-2499** | 0,089 | 0,088 | 0,086 | 0,084 | 0,082 | 0,080 | 0,071 | | |
| **2500-4999** | 0,105 | 0,103 | 0,101 | 0,098 | 0,095 | 0,091 | 0,080 | | |
| **5000-9999** | | 0,165 | 0,157 | 0,148 | 0,138 | 0,122 | 0,108 | 0,089 | 0,080 |
| **10000-** | | | 0,221 | 0,213 | 0,193 | 0,167 | 0,136 | 0,122 | 0,110 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **24999** | | | | | | | | | |
| **25000-49999** | | | | 0,315 | 0,250 | 0,218 | 0,194 | 0,167 | 0,150 |
| **50000-99999** | | | | | 0,304 | 0,265 | 0,241 | 0,220 | 0,203 |
| **100000 və ya daha yuxarı** | | | | | | 0,334 | 0,293 | 0,275 | 0,257 |

1.3. Hesablama əmsalının müəyyən edilməsi məqsədi ilə sığorta riskinin qrupları aşağıdakı kimi müəyyənləşdirilir:

1.3.1. inzibati binalar, onların mülkiyyətçisinin və ya üzərində faktiki sahibliyə malik olan digərşəxsin həyata keçirdiyi iqtisadi fəaliyyətin növündən asılı olmayaraq 1-ci risk qrupuna aid edilir.

1.3.2. Bu Qaydanın 1.3.1-ci bəndi nəzərəalınmaqla, daşınmaz əmlakın risk qrupu onun mülkiyyətçisinin və ya üzərində faktiki sahibliyi həyata keçirən digər şəxsin həminəmlakda həyata keçirdiyi iqtisadi fəaliyyətin aid olduğu, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2008-ci il 14 noyabr tarixli qərarı və Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 2008-ci il 22 dekabr tarixli əmri ilə təsdiq edilmiş "İqtisadi Fəaliyyət Növləri Təsnifatının 3-cü versiyasına Əlavə"dənəzərdə tutulan müvafiq iqtisadi fəaliyyət növləri üzrə aşağıdakı kimi müəyyən edilir:

| **Risk qrupu** | **İqtisadi fəaliyyət növlərinin bölgüsü** | |
|---|---|---|
| | *Seksiya kodu* | *Seksiyanın adı* |
| 1 | K Seksiyası | Maliyyə və siğorta fəaliyyəti |
| | O Seksiyası | Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat |
| | U Seksiyası | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti |
| | L Seksiyası | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar |
| 2 | N Seksiyası | İnzibati və yardımçı xidmətlərin göstərilməsi |
| | P Seksiyası | Təhsil |
| | M Seksiyası | Peşə, elmi və texniki fəaliyyət |
| | J Seksiyası | İnformasiya və rabitə |
| | S Seksiyası | Digər sahələrdə xidmətlərin göstərilməsi |
| | Q Seksiyası | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi |
| | R Seksiyası | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət |
| 3 | A Seksiyası | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
| | H Seksiyası | Nəqliyyat və anbar təsərrüfatı |
| | G Seksiyası | Topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri |
| | E Seksiyası | Su təchizatı; çirkli suların və tullantıların təmizlənməsi |
| 4 | D Seksiyası | Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat |
| | C Seksiyası | Emal sənayesi |
| | İ Seksiyası | Yaşayışın təşkili və ictimai iaşə |
| | B Seksiyası | Mədənçıxarma sənayesi |
| | F Seksiyası | Tikinti |

1.4. sığorta riskinin qruplarına görəhesablama əmsalı aşağıdakı cədvəldəki kimi müəyyən olunur:

| Risk qrupu | Hesablama əmsalı |
|---|---|
| 1 | 0,16 |
| 2 | 0,22 |
| 3 | 0,28 |
| 4 | 0,35 |

1.5. Yaşayışevləri və mənzillər üçün sığorta tarifi 0,2 % müəyyən edilir.